

Fəzail İsmayıl Böyükkişi

(əvvəli ötən sayımızda)

# Məhəmməd Əmin yadigarı...

## Bu yazını Azərbaycanın əməkdar rəssamı Rais Azər oğlu Rəsulzadənin anadan olmasının 75 illiyinə həsr edirəm

***Onun ən maraqlı görüşlərisə böyük sənətkarlar Mikayıl Abdullayevlə, Əbdulxalıqla, Böyükağa Mirzəzadəylə və Azərbaycan incəsənətinin əfsanəsi sayılan Səttar Bəhlulzadə ilə keçirdiyi görüşlər olardı. Bu böyük rəssamlarla keçirdiyi hər bir görüşün özü onun üçün ayrılıqda böyük bir məktəb idi. Mənim aləmimdə şairliyə ən yaxın sənət rəssamlıq sənətidir. Çünki rəssamlar da şairlər kimi bütün həyatını öz sənətinə qurban verirlər, çünki rəssamlar da şairlər kimi həm çox incə qəlbli, həm də çox dözümlü, cəsarətli adamlar olur. Bu mənada bir qədər əvvəl dahi rəssamımız Səttar Bəhlulzadənin adını çəkdiyim üçün onunla bağlı seyr etdiyim bir hadisəni danışım: 'Onuncu sinifə keçəndə atamla böyük bacım Südabə ilə atamın əmisi oğlu İlyas əmimgilə gəlmişdik. Onların evləri o vaxtkı Razinin Ərəblinka deyilən qəsəbəsində idi. O vaxt universitetin filologiya fakültəsində oxuyan bacım Südabə ilə universitetə getmək üçün eyni vaxtda avtobusa minib 'Neftçilər" metrosuna gedərdik.***

Bu vaxt biz mindiyimiz avtobusa Səttar Bəhlulzadə də minərdi, minən kimi avtobusun arxa sırasında oturar və dərhal yuxuya gedərdi. Avtobus "Neftçilər" metrosuna çatanda avtobusdan düşüb yolunu davam etdirərdi. Acınacaqlı bu idi ki, sərnişinlərin çoxu onu tanımadığından onu dilənçiyə bənzədib onun üst-başına qəpik-quruş qoyardılar. O böyük rəssam sənət korifeyisə avtobus "Neftçilər" metrosuna çatanda ayağa durub paltarının üstündən tökülən qəpik-quruşa məhəl qoymayıb yoluna davam etdirərdi. O vaxt bədahətən bu beyti söyləmişdim:

**Tfu bu dünyanın murdar üzünə,**
**Yolu əyri getmək olmur düzünə.**

Sonrakı illərdə Rais bəy ona qarşı olan laqeydlik buzunu qıra bildi. Çox çəkmədi ki, onun rəsmlərinin sorağı neçə-neçə uzaq ölkələrdən – Kubanın Havana, Əfqanıstanın Kabul, Polşanın Varşava, ABŞ-ın Haustan şəhərlərində keçirilən sərgilərdən gəlməyə başladı. O, hazırda Azərbaycan Pedaqoji İnstitutunun "Rəsm heykəltəraşlıq və boyakarlıq" kafedtasının dosenti kimi dərs deyir. O yeraltı zirzəmidə 12 il yaşadı. Sevdiyi ömrünü bağladığı Leyla xanım onunla eyni təbiətdə, ruhca ona oxşar insan olduğundan o yeraltı mənzilə bir saraya gələn kimi vüqarla gəlin köçdü. Onun uğurları da həmin vaxtdan başladı. 1976-cı ildə ilk dəfə olaraq Moskvada keçirilən "Vətənin gəncliyi" adlı Ümumittifaq sərgisinin iştirakçısı oldu. 1978-ci ildə onun üçün uğurlu oldu. Həmin ildə o, Bakıda keçirilən Respublika rəssamlarının payız sərgisində iştirak etdi. Azərbaycanın və o vaxtkı SSRİ Rəssamlar İttifaqının üzvü seçilmişdi. Rais bəy 1984-cü ildə mənzil növbəsinə durdu. Ona 1985-ci ildə Əhmədlidə ev verdilər. Gənc rəssamlar üçün ayrılmış emalatxanası da elə həmin ərazidə idi. Bir də o illərdə ən böyük mükafatını almışdı. Bu böyük dünyaya balaca qızı Humay xanımın gəlişinin sevincini ömür-gün yoldaşı Leyla xanımla birgə yaşamışdı.

1994-1995-ci illərdə ardıcıl olaraq açdığı fərdi sərgilərində üzə çıxardığı tabloları və ilk müəllimi atası Azər bəyin tabloları ilə birgə tamaşaçıları heyrətləndirmişdi. Onun ilk müəllimlərindən olan Kamil Xanlarov, Vicdan komissiyasının sədri, əməkdar elm xadimi professor Murtuz Sadıxov, şairlər Teyyub Qurban, Oqtay Rza və digər tamaşaçılar bu sərgiyə baxan hər bir tamaşaçı bu rəsm əsərləri barədə xoş təəssüratlarını bildirmişdir. Amma Rais bəyin bir ömrə sığışdırdığı işlər təkcə sənətiylə məhdudlaşmır. O, 1990-cı illərdə Mədəniyyət Fondunun nəzdində yaradılan keçmiş SSRİ üzrə repressiya olunmuşların hüquqlarını müdafiə eləmək məqsədilə yaradılan "Vicdan" komissiyasının üzvüdür. Az sonra yaradılan "Əski Müsavatçılar nəsli Beynəlxalq Cəmiyyəti" isə Böyük Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyasının üzvlərini araşdırmaqla məşğul olurdu. Əski Müsavatçılar nəsli komissiyasının sədri Fuad Zeynallı dünyasını dəyişəndən sonra həmin cəmiyyətin prezidenti Rais bəy seçilib. Dünya Azərbaycanlıları Konqresinin Strasburqda keçirilən toplantıda Rais bəy konqresin fəxri sədri olub. Moskvada, Ankarada Məhəmməd Əmin Rəsulzadəylə bağlı tədbirlərdə iştirak eləyib. 1997-ci ildə həmin tədbirlər çərçivəsində Ankarada "Milli Kültür dərnəyi"ndə görüşdə olub. Babası Əmin bəyin məzarı önündə çıxış eləyib. *O 2006-cı ilin yanvarında Moskvada keçirilən tədbirdə onu "Məhəmməd Əmin Rəsulzadə" medalına layiq görüblər. Həmin vaxt Azərbaycan diasporasının yaratdığı "Azərbaycan internesnel" kanalının dəvətiylə orda çıxış etmişdir. Rais bəy Məhəmməd Əmin Rəsulzadə ocağının yadigarıdır. Bu doğmalıq onun həyatında çox təlatümlər qoparıb. O gözünü açandan çox sıxıntılar görüb, bəzən doğma bildiyi adamların xəyanəti, laqeydliyi ilə üzləşib, baş götürüb bu məmləkətdən getmək istədiyi məqamlar da olub amma getməyib. Bu torpağa, sənətinə olan sevgisi saxlayıb onu. İndi də daşlı-kəsəkli ömür yolunda özünə bağışla*ya bilmədiyi səhvləri də olub. Dilinə gətirməsə də belə o səhvlərinin acısını yaşamaqdadır. Amma o bu illər ərzində çətin məqamlarda taleyin ən amansız oyunlarına rəğmən əyilməməyi, sınmamağı öyrənib. Atası Azər bəydən, babası Məhəmməd Əmin bəydən irsən ötürülən bu yenilməzlik böyük bir insan, bənzərsiz bir sənətkar kimi onu da elə sağlığında əbədiyyət yoluna çıxarmaqdadır. Doğrudan da Rais bəy bir Vətən fədaisi, millət aşiqi kimi babası Əmin bəyin, bir təbiət və gözəllik vurğunu kimi atası Azər bəyin layiqli varisi, layiqli davamçısıdır.

İndi də Rais bəylə rəssamlıq təsviri sənəti barədə söhbətimi oxucuların diqqətinə çatdırım.

Rais bəy mənim ərklə üz tutduğum dostlarımdan biridir. Belə dostlar haqqında Şeyx Sədi çox haqlı olaraq deyib: "Qardaşın da dost olsa yaxşıdır. Qardaşım olmasa da xoşbəxtəm ki, Rais bəy kimi dostum və dostlarım var.

Rais bəy 40 ildən çoxdur ki, Azərbaycan Pedaqoji Universitetində gənc rəssamlara Azərbaycan təsviri sənətinin sirlərini öyrədir. Rais bəydən Azərbaycan rəssamlığının inkişaf tarixi haqqında danışmasını xahiş edirəm. Rais bəy qədim yaşayış məskənimiz olan Azərbaycanda rəssamlığın çox qədim dövrlərdə mövcud olduğunu söyləyərək bunları deyir: "Hələ poliolet dövründə Qobustan qayalarındakı daşlar üzərinə çəkilən rəsmlər sübut edir ki, Azərbaycanda yazı kəşf edilmədiyi dövrlərdə rəssamlıq sənəti inkişaf etmiş, qədim insanlar öz fikirlərini bu rəsmlər vasitəsi ilə bir-birlərinə çatdırmışlar. Biz rəssamlara ilk bəlli olan rəsm əsərləri XII-XIII –XIV əsr rəssamlarının rəsm əsərləridir. Bu rəsm əsərinin bəziləri Xəqaninin, Nizaminin əsərlərinə çəkilən minatür əsərləridir, bəziləri də xalçaçılıqda geniş istifadə edilən rəsm əsərləridir. Eyni zamanda, həmin dövrdə rəssamlığın böyük bir sahəsi olan heykəltəraşlıq da inkişaf etməyə başlayırdı. Həmin dövrdəki rəssamlar hərtərəfli bilik sahibləri olduqları üçün xalq arasında həm də filosof, mütəfəkkir, musiqiçi, heykəltəraş və digər sənədlərin sahibi kimi də tanınırdılar. Belə rəssamlardan biri də XIII-XIV əsrlərdə yaşamış Kəmaləddin Behzad idi. Rəssamlığın Azərbaycanda qədim və orta əsrlər dövründə inkişaf etməsinin min illərdən çox yaşı olan İrəvan, Gəncə, Dərbənd, Şəki, Şamaxı, Təbriz, Ərdəbil, İsfahan, Xorasan və digər şəhərlərdə olan möhtəşəm tikililərdə, abidələrdə, sərdabələrdə, günbəzlərdə, məscidlərdə görülən işlər sübut edir ki, o vaxt da çox mahir heykəltəraşlar olub. Qaldı ki, tariximizin XX və XXI əsrlərindəki təsviri sənətimizin yəni müasir rəssamlarımızın səviyyəsi haqqındasa deməliyəm ki, Azərbaycan rəssamlığı XX əsrin 30-40-cı illərindən başlayaraq Bəhruz Kəngərli, Əzim Əzimzadə, Qəzənfər Talıbov və digərləri kimi böyük rəssamlar yetirdi. Bu məşhur rəssamlar nəslini 50-60-cı illərdə Ələsgər Rzaquluyev, Maral Rəhmanzadə, Tağı Tağıyev, Səttar Bəhlulzadə və sonrakı rəssamlar nəsli Tahir Salahov, Toğrul Sadıqzadə və Oqtay Sadıqzadə qardaşları, Toğrul Nərimanbəyov və digər rəssamlar eləcə də Fuad Əbdürrəhmanov, Tuqay Məmmədov və digərləri kimi mahir heykəltəraşlar nəsli yetirdi. 80-ci illərdəsə Azərbaycanda yeni rəssamlar nəsli, realist rəssamlar nəsli yetişdi. Bu rəssamlar nəslinə İsmayıl Məmmədov, Ağaəli İbrahimov, Firovlsi Atayev, bir çoxları, o cümlədən də mən Rais Rəsulzadə daxildir".

***Bəllidir ki, sovet dövründə ədəbiyyatçılara və rəssamlara sənət əsərlərini sosializm realizmi üslubunda yaz-yarat göstərişi verilmişdi. Bu səbəbdən də cəmiyyət də həmin üslubda yaradılan əsərləri gördüyündən həmin əsərləri görməyə üstünlük verirdi. Lakin buna baxmayaraq 70-80-ci illərin rəssamları öz yaradıcılıq yollarında dəyişiklik etməyə başlayaraq yaradıcılıqlarında novatorluğa üstünlük verməyə başladılar. Buna görə də cəmiyyətdə yeniliklər öz yerini tapmaqdaydı. Buna Qərbdə (Avropada və ABŞ-da) yaranan yeni cərəyanlar da öz təsirini göstərirdi.***

***Ümumiyyətlə XX əsr təsviri sənətdə yeni cərəyanların yaranmasıyla zəngindir.***




*Rais bəy Məhəmməd Əmin Rəsulzadə ocağının yadigarıdır. Bu doğmalıq onun həyatında çox təlatümlər qoparıb. O gözünü açandan çox sıxıntılar görüb, bəzən doğma bildiyi adamların xəyanəti, laqeydliyi ilə üzləşib, baş götürüb bu məmləkətdən getmək istədiyi məqamlar da olub amma getməyib. Bu torpağa, sənətinə olan sevgisi saxlayıb onu. İndi də daşlı-kəsəkli ömür yolunda özünə bağışlaya bilmədiyi səhvləri də olub. Dilinə gətirməsə də belə o səhvlərinin acısını yaşamaqdadır. Amma o bu illər ərzində çətin məqamlarda taleyin ən amansız oyunlarına rəğmən əyilməməyi, sınmamağı öyrənib...*

(ardı gələn sayımızda)